KİV rəhbərlərinə "Universitetin dostu" mükafatı təqdim edilib
səh. 3

Yaponiya səfiri universitetdə
səh. 2

İsveçrə səfiri ilə görüş
səh. 2

Özünü fəth etməyi bacar!

Bakı Universiteti

1929-cu ildən çıxır
Təsisçi: Bakı Dövlət Universiteti

№ 08 (1431) 29 iyun 2012-ci il

BDU-da Milli Qurtuluş Günü qeyd edilib

səh. 3

Gürcüstan EA-nın akademiki universitetdə olub
səh. 2

Beynəlxalq elmi konfransın nümayəndələri BDU-da
səh. 2

Avropa Şurasının ekspertləri Bakı Dövlət Universitetində
səh. 5

Rektor alimləri təltif edib
səh. 2

Memorandum imzalanıb
səh. 2

Təbrik edirik!
səh. 6

Otuz ildən sonra doğma universitetdə
səh. 5

BDU HƏMKARLAR İTTİFAQI KOMİTƏSİNİN konfransı
səh. 6

POÇT QUTUSU
səh. 2

Məzun günü

səh. 4

Tələbə dünyası
səh. 8

Xalqımız xilaskar oğlu ilə fəxr edir
səh. 7

Olimpiada qalibləri
səh. 8

THİK-in növbəti hesabat - seçki konfransı
səh. 8

"Təbiət və səmərəli texnologiyalar"
səh. 7

Özünü fəth etməyi bacar!
Bakı Universiteti

Yaponiya səfiri universitetdə

İyunun 6-da rektor, akademik Abel Məhərrəmov Yaponiyanın ölkəmizdəki səfiri Şusuke Vatanabe ilə görüşüb. Görüşdə BDU ilə Yaponiya universitetlərinin əməkdaşlığından, tələbə-müəllim mübadiləsindən və yapon dilinin tədrisi məsələlərindən danışılıb. Eyni zamanda Azərbaycan-Yaponiya parlamentlərarası dostluq qrupunun fəaliyyətindən də bəhs edilib. Dostluq qrupunun sədri Abel Məhərrəmov əməkdaşlıqdan məmnun olduğunu bildirib.

Səfir Şusuke Vatanabe universitetdə yapon dilinin tədrisindən razı qaldığını və bu günlərdə həmin fənni tədris edən müəllimlərin mükafatladırılacaqlarını bildirib.

Abel Məhərrəmov İsveçra səfiri ilə görüşüb

İyunun 21-də rektor, akademik Abel Məhərrəmov İsveçrənin Azərbaycandakı səfiri xanım Sabine Ulmann Şaban ilə görüşüb. Bakı Dövlət Universiteti kimi qabaqcıl təhsil ocağında olmağından qürur hissi duyduğunu deyən səfir universitetin Azərbaycanın ilk ali təhsil ocağı olduğunu xüsusilə vurğulayıb. Öz növbəsində səfir Ulmanın BDU-ya gəlişindən məmnunluq duyduğunu deyən rektor, akademik Abel Məhərrəmov, universitetin tarixi, beynəlxalq əlaqələri barədə danışıb. Müxtəlif ixtisas üzrə təhsil alan tələbələrin İsveçdə təcrübə keçmələrinin səmərəli nəticə verəcəyini və səfirin bu istiqamətdə dəstək olacağına əminliyini ifadə edib. BDU ilə tanışlığın onda xoş təəssürat yaratdığını deyən səfir təmsil etdiyi ölkənin BDU ilə əməkdaşlıqda, birgə proqram və layihələrin reallaşmasında maraqlı olduğunu bildirib. Görüşdə yeni innovasiyalar üzrə elmi istiqamətlərlə bağlı əməkdaşlıq və bir sıra qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. BDU ilə yaxından tanış olan nümayəndə heyəti xoş təəssüratlarla ayrılıb.

"Gənc istedadlar" liseyində "SON ZƏNG"

Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyində "Son zəng" keçirilib. Rektor, akademik Abel Məhərrəmov müstəqil həyata qədəm qoyan məzunları və onların valideynlərini salamlayıb, bu gözəl gün münasibəti ilə təbrik edib. Rektor qeyd edib ki, hər il olduğu kimi bu il də liseyi bitirən məzunların hamısının tələbə adına layiq görüləcəyinə, xalqımızın gələcəyi naminə görülən böyük işlərin iştirakçılarına çevriləcəyinə şübhə etmir. Akademik Abel Məhərrəmov liseyin məzunlarına və şagirdlərinə öz tövsiyəsini verib, onları bir daha təbirik edib. Daha sonra liseyin direktoru, professor Qasım Hüseynov, lisey Valideyn Komitəsinin sədri, şair Oqtay Zəngilanlı və digərləri çıxış ediblər.

Qeyd edək ki, lisey 2007-ci ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən fəaliyyətə başlayıb. Hazırda liseydə 470 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 21 nəfər elmi dərəcəli BDU müəllimləri olmaqla 71 nəfər müəllim məşğul olur. Liseyə maraq ildən-ilə sürətlə artır. Bu il liseyin Azərbaycan və rus bölmələrinin V sinfinə 60 nəfər şagirdin qəbulu nəzərdə tutulduğu halda, 960 nəfər ərizə verib. Liseydə üç buraxılış olub və 61 nəfərin hamısı nüfuzlu ali məktəblərə qəbul olublar. TQDK-nın statistik məlumatına əsasən, liseyin 2009, 2010 və 2011-ci il məzunları topladıqları orta bala və düzgün cavabların faizinə görə Təhsil Nazirliyinin tabeliyində olan və özəl liseylər arasında birinci olub.

Gürcüstan EA-nın akademiki universitetdə olub

İyunun 7-də rektor, akademik Abel Məhərrəmov Gürcüstan Elmlər Akademiyasının akademik katibi Givi Tsintsadzeni qəbul edib.

Əvvəlcə rektor, akademik Abel Məhərrəmov Azərbaycan və Gürcüstan arasındakı dostluq və qardaşlıq münasibətlərindən danışıb, bu əlaqələrin ümummilli lider Heydər Əliyevin dövründə mökəmləndiyini və bu gün Prezident İlham Əliyevin siyasəti nəticəsində daha da inkişaf etdiyini vurğulayıb. Akademik BDU-nun tarixi və bu günü barədə məlumat verərək, ölkələr arasında təhsil və elm sahəsindəki əməkdaşlığın önəmli olduğunu nəzərə çatdırıb, universitetdə kimya elminin inkişafına xüsusi önəm verildiyini bildirib.

Givi Tsintsadze Azərbaycan alimləri ilə ötən əsrin 50-ci illərindən başlamış və bu günə qədər davam edən əlaqələrdən danışıb. Qonaq Gürcüstan universitetləri və onların ölkədə kimya elminin inkişafına verdiyi töhfələrdən bəhs edib.

Görüşdə BDU və Gürcüstan kimyaçıları arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

Qonaq Heydər Əliyev Muzeyində, BDU-nun laboratoriya və elmi-tədqiqat mərkəzlərində olub.

Givi Tsintsadze - görkəmli alim, müəllim və elm təşkilatçısı, kimya elmləri doktoru, professor, Gürcüstan Elmlər Akademiyasının akademiki, Gürcüstan və Ukrayna Dövlət mükafatı laureatıdır. O, 550 monoqrafiya, dərslik və patent müəllifidir.

Gürcüstan Milli Elmlər Akademiyası ilə memorandum imzalanıb

Gürcüstan Milli Elmlər Akademiyası ilə BDU arasında elm və təhsil sahəsində əlaqələri inkişaf etdirmək məqsədilə Anlaşma Memorandumu imzalanıb. BDU tərəfindən Memorandumu rektor, akademik Abel Məhərrəmov, Gürcüstan tərəfindən isə Milli Elmlər Akademiyasının akademik katibi Givi Tsintsadze imzalayıblar. Bu əhəmiyyətli sənədə imza atan rektor Abel Məhərrəmov Memorandum çərçivəsində həyata keçiriləcək işlərin önəmindən danışıb.

İmzalanan Anlaşma Memorandumu aşağıdakı sahələrdə iki qurum arasında əməkdaşlığı nəzərdə tutur.

- Tədqiqatçı və doktorantların mübadiləsi
- Professor və müəllim heyətinin elmi sahədə ixtisaslarının artırılmasına qarşılıqlı yardım
- Qabaqcıl inkişaf metodları sahəsində təcrübə mübadiləsi
- İkitərəfli birgə simpozium, seminar və konfrans təşkili

Qarşılıqlı maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakı.

Beynəlxalq elmi konfransın nümayəndələrilə görüş

İyunun 8-də Azərbaycan Milli Elmlər Akademiyasında "Azərbaycan torpaqları: Genezis, Coğrafiya, Meliorasiya, Səmərəli istifadə və Ekologiya" mövzusunda keçirilən Beynəlxalq elmi konfransında iştirak edən xarici nümayəndələr Bakı Dövlət Universitetində olublar. Səfərin məqsədi Azərbaycan ali təhsil ocaqlarının flaqmanı Bakı Dövlət Universiteti ilə tanışlıq olub. Qonaqlara Universitet haqqında prezentasiya təqdim olunub, BDU-nun rektoru, akademik Abel Məhərrəmov universitetin tarixi, bugünkü uğurları ilə bağlı geniş məlumat verib.

Daha sonra qonaqlar universitetlə yaxından tanış olmaq məqsədilə laboratoriyalar, Heydər Əliyev muzeyi, Elektron Tədris Mərkəzinə baş çəkiblər.

Qeyd etmək lazımdır ki, konfrans Azərbaycan torpaqşünaslıq elminin görkəmli nümayəndəsi, kənd təsərrüfatı elmləri doktoru, professor Muxtar Rzaqulu oğlu Abduyevin 85 illik yubileyinə həsr olunub. Konfrans Bakı və Qəbələ şəhərlərində keçirilib.

Konfrans əsasən aşağıdakı istiqamətlər üzrə keçirilib:

- Torpaqların genezisi,coğrafiyası və diaqnostikası
- Torpaqların ekologiya, kadastrı və qiymətləndirilməsi
- Torpaqların fizikası, meliorasiyası və irriqasiyası
- Torpaqların münbitliyinin idarəedilməsi və ekoloci monitorinqin təşkili.

Rektor alimləri təltif edib

Rektor, akademik Abel Məhərrəmov Coğrafiya fakültəsinin professorları - Rəhim Hüseynovu, Çingiz İsmayılovu və dekan müavini Elxan Nuriyevi doğum günləri münasibətilə qəbul edib.

Alimlərin universitet həyatında fəaliyyətlərini yüksək qiymətləndirən akademik Abel Məhərrəmov onların həyatlarını elmə, dövlətin inkişafına, təhsilimizin gələcəyinə həsr etdiklərini qeyd edib. Rektor onları təbrik edərək, elmi fəaliyyətlərində uğurlar, cansağlığı və uzun ömür arzulayıb.

Akademik alimləri elmin və təhsilin inkişafında və gənclərin yetişdirilməsindəki xüsusi xidmətlərinə, tələbələrdə vətənə, xalqa, dövlətə məhəbbət ruhunun aşılanmasındakı rollarına görə Fəxri Fərmanla təltif edib.

POÇT QUTUSU

Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik Abel Məhərrəmova

Minnətdarlıq məktubu

Hörmətli akademik Abel Məhərrəmov!

Sizə olan dərin minnətdarlıq hisslərimi, sizin şəxsinizdə möhtəşəm bir azərbaycanlı ziyalısına, aliminə nəhayətsiz rəğbətimi bildirmək istəyirəm.

Siz böyük qəlbə malik, humanist bir insansınız. Bu yaxınlarda ciddi məişət problemi ilə qarşılaşmışdım. Və bunun həlli yolunu yalnız sizə müraciət etməkdə gördüm. İşlərinizin gərgin olmasına baxmayaraq, mənə vaxt ayırdınız, problemimlə maraqlandınız və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova mənə kömək etməsi ilə bağlı məktub ünvanladınız. Həmin məktub əsasında Eldar müəllim məni qəbul etdi və problemimin həllinə kömək etdi. Buna görə Sizə təşəkkür edirəm.

Sizin rəhbərliyiniz altında bu möhtəşəm təhsil ocağında işləməyimlə qürur hissi keçirirəm.

Sizə uzun ömür, tükənməz enerji, səadət və insanlara qarşı çox həssas və humanist münasibətinizə, qayğınıza görə minnətdarlığımı bildirirəm.

Aydın Məmmədov,
tarix fakültəsinin müəllimi

BDU-da Milli Qurtuluş Günü qeyd edilib

Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov bildirib ki, 19 il bundan əvvəl xalqımız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışına nail ola bildi, o, isə öz növbəsində Azərbaycan xalqını düşdüyü bəlalardan, qarşılaşdığı problemlərdən qurtardı və xalqımızın Qurtuluş yolunu müəyyənləşdirdi. Dağlıq Qarabağ problemindən də danışan rektor bildirib ki, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi kurs xalqımızı çox uzaq olmayan gələcəkdə bu problemdən də qurtaracaq və biz Qurtuluş Gününü daha böyük sevinc və fərəhlə qeyd edəcəyik: "Tarix göstərir ki, bütün böyük problemlərin həlli qısa zaman kəsiyində baş vermir. Onun həlli üçün bütün xalq mütəşəkkil formada mübarizə aparmalıdır. Bu baxımdan Dağlıq Qarabağ probleminin həlli istiqamətində ölkə başçısının apardığı məqsədyönlü və ardıcıl siyasəti yerlərdə hər bir azərbaycanlı daxili problemi hiss etməli və onun həlli üçün çalışmalıdır. Güman edirəm ki, bu gün BDU-nun təşəbbüsü ilə Fransada çap olunub ərsəyə gələn və fransız dilində dünya ictimaiyyətinə təqdim olunan Holland mənşəli hərbi müxbir Çarlz Van der Leunun "Dağlıq Qarabağ: dünyanın unutduğu müharibə" kitabı bu istiqamətdə atılmış addımlardan biridir".

Kitab haqqında məlumat verən rektorun sözlərindən məlum olub ki, Çarlz Van der Leu 1952-ci ildə iyulun 18-də anadan olub, fransız dilində klassik Avropa təhsili aldıqdan sonra 1977-ci ildən müstəqil jurnalist kimi fəaliyyətə başlayıb, 1986-cı ildə İran-İraq müharibəsi haqqında "Qolfda müharibə" adlı kitabından sonra məşhurlaşıb. 1987-1990-cı illərdə Çarlz Van der Leu Beyrut radiosunda işləməyə başlayıb və Livan vətəndaş müharibəsi haqqında açıqlamalar verib. Həddindən artıq açıq və sərt çıxışlarına görə oğurlanıb və iki il həbsxana həyatı keçirib. Azadlığa çıxdıqdan sonra "Livan-günahsız müqəssir" adlı kitabını buraxıb, daha sonra 2 il Madriddə müxbir kimi işləyib. Nəhayət, 1992-ci ildə Azərbaycana gəlib, 7 il burada yaşayıb. Bu illər ərzində "Azərbaycan: şəxsiyyət axtarışında" (ingilis dilində), "Qafqazda fırtına" (ingilis və alman dillərində), "Qafqazda və Xəzərdə neft və qaz: tarix" (ingilis dilində) kitablarını yazıb. Sonuncu analitik kitabı olan "Dağlıq Qarabağ: dünyanın unutduğu müharibə" əsərini Çarlz hələ 2003-cü ildən yazmağı planlaşdırıb. Özünün yazdığına görə, fransız dilində Dağlıq Qarabağla əlaqədar heç bir obyektiv məlumat əldə edə bilmədiyinə görə müxtəlif çoxsaylı ədəbiyyatlara müraciət etməli olub.

Müəllif kitabın ön sözündə qeyd edir ki, fransız dilində rast gəldiyi və açıq-aşkar erməni lobbisinin təsiri altında birtərəfli işıqlandırılan Qarabağ tarixinin əslində çox maraqlı və dünyaya təqdim olunduğundan fərqli tarixi vardır.

Azərbaycan tarixi haqqında qədim və müasir alimlərin əsərlərini diqqətlə araşdıran, yalnız azərbaycanlı və erməni müəlliflərinin deyil, həm də Avropalı tarixçilərin əsərlərini oxuyan Çarlz Van der Leu Azərbaycanda olduğu illər ərzində müxtəlif adamlardan götürdüyü müsahibələri, çəkdiyi şəkilləri, cəbhə xəttində görüşdüyü insanları, şahidi olduğu hadisələri ümumiləşdirərək bu kitabı yazmaq qərarına gəlib. Müəllif ön sözdə yazır: "güman edirəm ki, bu kitab hələ də davam edən münaqişənin həllinə kömək etmək istəyənlərə öz töhfəsini verəcəkdir. Bu faciəvi münaqişənin pərdəarxası hadisələrini düzgün başa düşməyə köməklik göstərəcəkdir".

Rektor bildirib ki, bu kitabla tanış olarkən burada avropalı müəllifin obyektiv yanaşmasının şahidi olduq. Fransa lobbisinin təsiri altında yazan bir çox müəlliflərdən fərqli olaraq Çarlz Van der Leu Qarabağ hadisələrinə, onun tarixinə real yanaşıb, münaqişəni hərtərəfli və obyektiv işıqlandırmağa çalışıb. Məhz bu keyfiyyət diqqətimizi cəlb etdiyindən, kitabın çapı haqqında qərara gəlmişik. Geniş müzakirələrdən sonra kitabın təsir qüvvəsinin daha effektli alınması üçün onun fransız dilində və erməni lobbisinin güclü fəaliyyət göstərdiyi, buna görə də, heç də həmişə Dağlıq Qarabağ hadisələrinə obyektiv yanaşmağı bacarmayan Fransada çap etmək qərarına gəldik.

Rektor bu məsələdə köməklik göstərən bütün insanlara, böyük sifarişləri olmasına baxmayaraq, universitetin xahişini qısa müddətdə yerinə yetirən L.Harmattan nəşriyyatına, Parisdə fəaliyyət göstərən Şərq dilləri və mədəniyyətləri institutunun prezidenti Cak Leqrana təşəkkürlərini çatdırıb. Sonda deyib ki, çox qısa müddətdə çapa hazırlanaraq nəşr edilmiş bu kitab vasitəsilə Qarabağ həqiqətlərinə bir qədər də aydınlıq gələcək, xalqımızın üzləşdiyi bu ədalətsiz münaqişə haqqında, nəhayət Avropa ölkələrində ədalətli münasibət görəcəyik.

Rektor Abel Məhərrəmov həmçinin alman alimi Heiko Krügerin "Dağlıq Qarabağ konflikti - hüquqi araşdırmalar" kitabı haqqında da danışıb. Məlum olub ki, həmin kitab bu ilin əvvəllərində BDU-nun təşəbbüsü ilə ingilis dilindən rus dilinə tərcümə olunub. Kitabda Dağlıq Qarabağ probleminin hüquqi analizi verilib, bu münaqişənin obyektiv təhlili aparılıb ki, bu gün həmin kitabın dünyanın 3 aparıcı dilində - alman, ingilis və rus dillərində olan variantları hazırdır: "Biz çalışacağıq ki, həm Çarlz Van der Leunun, həm də Heiko Krügerin kitabları dünyanın bir çox dillərində çap olunsun və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılsın. Uzun müddət informasiya blokadasında dondurulmuş Qarabağ həqiqətlərini dünya xalqlarına çatdırmaq üçün biz bütün vasitələrdən istifadə edəcəyik. Biz bu sahədə araşdırmalarımızı davam etdiririk. Beynəlxalq aləmdə bu konfliktlə bağlı xarici müəlliflərin çap olunmuş kitablarını, əlbəttə, həqiqəti qələmə alanları müxtəlif dillərdə çap edib bu barədə indiyədək olan yalan məlumatlar şəbəkəsinə sarsıdıcı təsirimizi göstərəcəyik. Mən hesab edirəm ki, belə yanaşma hər kəsin vətəndaşlıq borcudur və Qurtuluş gününə ən gözəl hədiyyədir".

Prezident Administrasiyası xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov da Qurtuluş günündən, təqdim olunan kitabların əhəmiyyətindən danışıb xalqımızı bu əziz gün münasibətilə təbrik edib.

Akademik Vasim Məmmədəliyev, millət vəkili Musa Qasımlı da Qurtuluş günü və kitablarla bağlı fikirlərini bölüşüblər.

Anzulə Əmirova

KİV rəhbərlərinə "Universitetin dostu" mükafatı təqdim edilib

İyunun 20-də universitetdə Azərbaycan milli mətbuatının banisi, tanınmış publisist, pedaqoq və təbiətşünas alim Həsən bəy Zərdabinin 170 illik yubiley tədbiri və "Universitetin dostu" mükafatının təqdimat mərasimi keçirilib. Tədbiri açan universitetin rektoru, akademik Abel Məhərrəmov Prezident İlham Əliyevin xalqımızın mədəni-ictimai fikir tarixinə dəyərli töhfələr vermiş Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərənjamın əhəmiyyətindən danışıb. Qeyd edib ki, Həsən bəy Zərdabi redaktoru olduğu "Əkinçi" qəzetini nəşr etdirməklə milli mətbuatın bünövrəsini qoyub, dövrün ziyalılarını bu qəzet ətrafında birləşdirərək mühüm vəzifələrin uğurla həyata keçirilməsində misilsiz rol oynayıb.

Jurnalistikanı dünyanın ən təhlükəli, həm də çox şərəfli və məsuliyyətli peşə hesab edən Abel Məhərrəmov ümummilli lider Heydər Əliyevin senzuranın ləğv olunması haqqında qərarından, Azərbaycan jurnalistlərinə qayğının çox yüksəldiyi son illərdə jurnalistikanın cəmiyyət arasında mövqeyinin yüksəlməsindən, imicinin qalxmasından da danışıb.

Rektor kütləvi informasiya vasitələrinin Bakı Dövlət Universitetinə olan münasibətindən, universitet haqqında dolğun və davamlı məlumatların respublika ictimaiyyətinə lazımi səviyyədə çatdırılmasında jurnalistlərin xidmətlərindən də danışıb və "Universitetin dostu" mükafatının məhz buna görə təsis edildiyini vurğulayıb. Rektor 10 nəfər KİV rəhbərinin "Universitetin dostu", bir qrup jurnalistin isə fəxri fərman və hədiyyəyə layiq görüldüyünü diqqətə çatdırıb.

Sonra "Klassik Azərbaycan jurnalistikası ənənələri və müasirlik" mövzusunda Jurnalistika fakültəsinin dekanı, professor Şamil Vəliyev məruzə ilə çıxış edib.

Mətbuat və informasiya şöbəsinin müdiri Pərvanə İbrahimova isə universitet-mətbuat münasibətlərindən, mətbuat və informasiya şöbəsinin fəaliyyətindən, "Universitetin dostu" mükafatının təsis edilmə zərurətindən bəhs edib.

Sonra "Universitetin dostu" mükafatı təqdim edilib. Bakı Dövlət Universiteti haqqında obyektiv, dolğun və davamlı məlumatlar yayımladığına, elmin, təhsilin inkişafına göstərdiyi qayğıya görə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Space" Müstəqil Teleradio Şirkəti MMC-nin prezidenti Vaqif Mustafayev, "Azad Azərbaycan" Teleradio Yayım Şirkətinin prezidenti Vüqar Qaradağlı, "Lider" TV və Radio Azərbaycan MMC-nin prezidenti Ədalət Əliyev, "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Ekspress" qəzetinin baş redaktoru Qəzənfər Bayramov, "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Bayram Hüseynzadə, Modern.az internet portalının baş redaktoru Elşad Eyvazlı, Lent.az İnformasiya Agentliyinin baş direktoru Qabil Abbasoğlu "Universitetin dostu" mükafatına layiq görülüblər.

Fəaliyyət göstərdikləri KİV-də BDU haqqında obyektiv və davamlı yazılarına görə isə "Azərbaycan" qəzetinin Humanitar siyasət şöbəsinin müdiri İradə Əliyeva, "Şərq" qəzetinin baş redaktor müavini Yusif Nəzərli, SalamNews informasiya agentliyinin redaktoru Rəna Əkbərova, Az.TV-nin Xəbərlər redaksiyanın əməkdaşı Elşad Həsənli, Space Televiziyasının "Hər gün" xəbərlər xidmətinin müxbiri Sevinc İsgəndərova, "Azərbaycan müəllimi" qəzetinin baş redaktor müavini Sarvan İbrahimov, "Ekspress" qəzetinin əməkdaşı Aqil Aslan, Azxəbər.com xəbər portalının baş redaktoru Hacıbəy Heydərli, AzərTAC İnformasiya Agentliyinin əməkdaşı İbrahim Əsədov, "525-ci qəzeti"in əməkdaşı Sevinc Qarayeva, APA İnformasiya Agentliyinin əməkdaşı Sevil Valehova, Trend İnformasiya Agentliyinin əməkdaşı İlhamə İsabalayeva, "Səs" İnformasiya Agentliyinin əməkdaşı Könül Cəfərova, Modern.az internet portalının əməkdaşı Nihadə Eyyubova, Lent.az İnformasiya Agentliyinin əməkdaşı Nizam Rza, "Üç nöqtə" qəzetinin əməkdaşı Elməddin Muradlı, "Azadinform" İnformasiya Agentliyinin əməkdaşı Atif Eyvazov, "Qaynar.info" Milli Xəbər portalının baş redaktoru Fərid Şahbazlı, "Elçi" qəzetinin əməkdaşı Natiq Həziquliyev fəxri fərman və hədiyyəyə layiq görülüblər.

MƏZUN - 2012

İyunun 28-də Bakı Dövlət Universitetində 2011/2012-cu tədris ilinin məzunları ilə təntənəli görüş olub.

Milli Məclis deputatlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. O qeyd edib ki, 2011/2012-ci tədris ilində BDU-nu 17 fakültə üzrə 4 minədək tələbə bitirir. Onlardan 500 nəfəri təhsilini fərqlənmə diploma ilə başa vurub.

Rektor xalqımızın dahi oğlu, müasir müstəqil dövlətimizin banisi və yaradıcısı Heydər Əliyevin Bakı Dövlət Universitetinin məzunu olduğunu sonsuz qürur hissi ilə xatırladıb. O qeyd edib ki, bu gün ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında böyük iqtisadi, siyasi uğurlar qazanır, beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir. Ölkəmizdə keçirilən müxtəlif mədəniyyət müsabiqələri, idman yarışları xalqımızın mənəvi böyüklüyünü sübut edir.

Akademik A.Məhərrəmov, eyni zamanda, BDU-da qazanılan uğurlardan bəhs edərək təhsil müəssisəsinin beynəlxalq əlaqələrinin genişləndiyini söyləyib.

Çıxış edən məzunlar doğma Vətənə layiqli övlad olmaq arzularını ifadə edib.

Sonra məzunlara fərqlənmə diplomları təqdim edilib. Tədbir maraqlı konsert proqramı ilə başa çatıb.

Bu il universiteti 4000-dək tələbə bitirir. Onlardan 500 nəfəri fərqlənmə diplomuna layiq görünənlərdir. 17 fakültənin hər birindən iki nəfərə fərqlənmə diplomu və valideynlərin adına yazılmış təşəkkür məktubu təqdim olub. Fərqlənmə diplomuna layiq görülən tələbələr qəzetimizə müraciət edərək öz təəssüratlarını bölüşüblər:

Əlaçı məzunların təəssüratları

Nərmin İbrahimova, geologiya fakültəsi

İnsan həyatının ən unudulmaz dövrü, şübhəsiz ki, tələbəlik illərinə təsadüf edir. Mənimsə bu gözəl və qayğısız illərim doğma Bakı Dövlət Universitetində keçib. 4 il bakalavr və 2 il magistratura təhsili aldığım dövrdə mən nəinki elmə yiyələndim, həm də dəyərli insanlarla tanış oldum. Ən məşhur və elmdə sözünü demiş müəllimlərdən, ziyalılardan dərs aldığım üçün özümü çox şanslı sayıram.

Aytən Eyvazzadə, şərqşünaslıq fakültəsi

Bir şəxsiyyət kimi yetişməyimizdə elm çox əhəmiyyətli bir vasitədir. Lakin nəyəsə nail olmaq istəyiriksə, qarşımıza ciddi bir məqsəd qoymalıyıq. Mən də belə etdim, elə birinci kursdan öz dərslərimdə bütünlüklə nailiyyət əldə etməyi qarşıma məqsəd qoymuşdum. Təhsil aldığım illərdə çox dəyərli müəllimlərdən dərs aldım. İxtisasıma hədsiz sevgim var. İnşaallah, bu sahədə də böyük nailiyyətlər əldə edərəm.

Ayşən Sadıqlı, filologiya fakültəsi

Biz, 4 il əvvəl tələbə adı qazanmış gənclər artıq məzun oluruq. Bakı Dövlət Universitetinin mənim yetişməyimdə rolu əvəzsizdir. Təhsil aldığım illərdə Nizami Gəncəvi adına təqaüdçüsü, fakültə TEC-nin sədri olmuş, 2010-cu və 2011-ci illərdə "İlin ən yaxşı tələbəsi" fəxri adına layiq görülmüş, birinci kursdan universitet xorunun fəal üzvü kimi bütün tədbirlərdə iştirak etmişəm. 1 qranta layiq görülmüşəm, 1 kitabım, 8 elmi məqaləm dərc edilib. Bakı Dövlət Universitetinin məzunu olduğum üçün qürur hissi keçirirəm.

Fatma Kərimzadə, Biologiya fakültəsi

Universitetdən ən xoş təəssüratlarla ayrılıram. İnanıram ki, universitetimizin məzunu olan biokimyaçılar hələ çox kəşflərə imza atacaqlar. Mənə dərs deyən bütün müəllimlərə təşəkkür edirəm. Onlar həmişə bizə qayğı ilə yanaşıblar. Təəssüflər olsun ki, keçmiş dekan müavini - bizim sevimli müəllimimiz Sabir Mustafayev aramızda yoxdur. O, həmişə tələbələrə diqqət, sevgi göstərərdi (Allah ona rəhmət eləsin!). Təhsil aldığım illərdə olduqca mehriban, sadiq dostlar qazanmışam, onları heç vaxt unutmayacağam. Çox sağ ol, BDU!

Nərgiz Bayramzadə, coğrafiya fakültəsi

Universitetdə təhsil aldığımız bu 4 il ərzində fakültə rəhbərliyinin yüksək diqqət və qayğısını həmişə hiss etmişik. Ölkəmizin gələcəyi biz gənclərin nə dərəcədə yüksək bilik və savada malik olmasından çox asılıdır. Biz gənclər bu sahədə öz məsuliyyətimizi dərk edirik.

Ellada Kərimova, kimya fakültəsi

Universitet mənim bir mütəxəssis kimi yetişməyimdə əsas rol oynadı. İstər bakalavr, istər magistr pilləsində mənə dərs keçən müəllimlərimə dərin minnətdarlığımı bildirir, onlara cansağlığı arzulayıram. Bundan sonrakı fəaliyyətimdə də universitetin adını daim uca tutacağıma söz verirəm.

Günay Mustafazadə, coğrafiya fakültəsi

İlk növbədə rektorumuz akademik Abel Məhərrəmova öz təşəkkürümü bildirirəm ki, biz tələbələrin rahat bir şəkildə təhsil alması üçün universitetde hər cür şərait yaradıb. Təhsilin yüksək səviyyədə keçirilməsi, imtahanlarda olan obyektivlik biz tələbələrdə oxumaq üçün daha böyük həvəs yaradır. Arzu edirəm ki, BDU ölkə daxilində flaqmanlığını qoruduğu kimi,beynəlxalq aləmdə də öz sözünü deyə bilsin.

Bildiyimiz kimi Turizm Azərbaycanda son illərdə yüksək sürətlə inkişaf edən sahələrdəndir. Bu ixtisası seçməyimə səbəb bu sahəyə olan böyük marağımnan irəli gəlir. Biz 4 il ərzində nəzəri biliklərlə yanaşı, 1-ci və 2-ci kurslarda ölkədaxilində, 3-cü kursda isə Kipr Türk Cümhuriyyətində 5 ulduzlu otellərdə təcrübi biliklərə yiyələndik. Təhsil aldığımız müddətdə bizim üstümüzdə zəhməti keçən fakültəmizin dekanı professor F. İmanov, dekan müavini R.Əhlimanov, kafedra müdirimiz dosent H. Soltanova, dosent E.Nuriyev, V.Dərgahov, R. Səfərov və digər müəllimlərə öz dərin təşəkkürümü bildirirəm.

Nərmin Həsənova, fizika fakültəsi

Mən burada təhsil aldığım müddətdə bir daha əmin oldumki məhz Bakı Dövlət Universitetini seçdiyim üçün qərarımda yanılmamışam. BDU da əldə etdiyim mükəmməl təhsil və göstəricilər gələcək kariyeramın qurulmasında mənə çox böyük üstünlüklər verəcək. Mən də həmçinin üzərimə düşən məsuliyyəti hiss edərək Bakı Dövlət Universitetinin tam ali təhsilli məzunu kimi mənə təhsil verən müəllim heyətinin əziyyətini itirmiyəcəm və özümü doğruldacam.

Otuz ildən sonra doğma universitetdə

26 may 2012-ci il... *Bu tarixi qeyd etməkdə məqsədim oxucunun diqqətini Bakıda keçirilən "Avroviziya - 2012" mahnı müsabiqəsinin final konsertinə cəlb etmək deyil.* Doğrudur, bu dünya miqyaslı tədbir Azərbaycan xalqının və dövlətinin qüdrətini bir daha göstərdi. Dünyanın hər bir tərəfindən Bakıya gəlmiş turistlər və müsabiqə iştirakçıları azərbaycanlıların qədim tarixə, zəngin mədəni irsə malik, yüksək insani keyfiyyətləri özündə ehtiva edə bilən bir xalq olduğunun əyani şahidi oldular. Belə bir tarixi gündə Bakı Dövlət Universitetinin fizika fakültəsini 1982-ci ildə bitirmiş məzunlar daha bir tədbiri, bu mötəbər elm və təhsil ocağını bitirmələrinin 30 illik yubleyini qeyd etdilər.

Tələbə Təşkilat Komitəsinin sədri, bu heyrətamiz görüşün ən aktiv təşkilatçılarından olan Bakı Dövlət Universitetinin dosenti, fizika elmləri doktoru Talətdin Bağırov bildirmişdi ki, 30 illik yubiley münasibəti ilə kecmiş məzunları universitetin rektoru, akademik Abel Məhərrəmov şəxsən qəbul edəcək. Əlbəttə, bu hadisə bizim coxdan gözlədiyimiz yubiley tədbirimizi daha mənalı və yaddaqalan edəcəkdi.

Tədbirlə bağlı təəssüratlarımı oxucularla bölüşmək istərdim.

Görüş vaxtı saat 11-də, BDU-nun əsas binasının qarşısında olsa da, Bakıda yaşayan və tez-tez müxtəlif tədbirlərdə görüşən yoldaşlar vaxtı bir qədər qabaqlamışdılar. Məqsədimiz uzun müddət görüşmədiyimiz tələbə yoldaşlarımızın bizi tanıya biləcəkləri və tanıdıqları halda necə reaksiya verəcəklərini öyrənmək idi. Sözlərlə ifadə edə bilmədiyim bu səhnəni vərəqə köçürdükcə gözlərimin yaşla dolduğunu, bədənimdən isə qəribə bir cərəyanın keçdiyini hiss edirəm. 30 il... Nələr olmadı bu zaman kəsiyində? Gözümüzün qarşısında dünyanın ən böyük imperiyası çökməyə başladı. Tarixi qarışıqlıqlardan həmişə məharətlə istifadə edən mənfur qonşularımız qədirbilən Azərbaycan xalqına qarşı növbəti xəyanətə əl atdı. Yüz minlərlə insan dünyanın gözü qarşısında min illər boyu yaşadıqları yurd-yuvalarından qovuldu, ərazimizin 20 %-dən çoxu işğal olundu, mədəni-tarixi abidələrimiz məhv edilərək yerlə yeksan edildi... Bütün bu və digər iztirabların izləri uzun müddət təmasda olmadığın insanların üz cizgilərində və baxışlarında açıq-aydın oxunurdu. Ona görə də bizlərin əksəriyyəti bir-birini ya tanımadı, ya da cox çətinliklə yaddaşını təzələyə bildi.

İlk təəssüratımız çox xoş oldu: Bakı Dövlət Universitetində, o cümlədən onun ətrafında aparılmış abadlıq və yenidənqurma işləri hamımızı heyrətləndirdi. Universitetin ətrafında, onun auditoriya, laboratoriya və dəhlizlərindəki səliqə-sahman, yüksək səviyyəli təmir, müasir tələblərə cavab verən cihaz və avadanlıqlar bu inkişafın əsas göstəricisidir.

Saat 2-də universitetin rektoru, akademik Abel Məhərrəmov bizimlə görüşdü. Təxminən yarım saat çəkən söhbət zamanı bu müdrik insanı - elm xadimini dinlədikcə onun nə qədər yüksək insani keyfiyyətlərə malik olduğunun bir daha şahidi olduq. Abel müəllim keçmiş tələbəlik həyatından, şirinli-acılı xatirələrdən danışdıqca sanki, o, bioloji sahə vasitəsilə ürəyimizdəkiləri oxuyub, bizdə nostalji hisslər yaradırdı. Abel müəllim deyəndə ki ikinci-üçüncü kursda oxuyan bacarıqlı tələbələri biz eyni zamanda universitetdə işlə təmin edirik, qəlbimiz fərəhlə doldu. Bu onun göstəricisidir ki, bu mötəbər elm və təhsil məbədinə Y.Məmmədəliyev, A.Qarayev, M.Əliyev kimi insanların qoyub getdiyi ənənələri yaşadan bir müdrik insan rəhbərlik edir. Qədim filosoflardan biri şərəfli insan ömrünü ulduzlarla zəngin Süd yola bənzətmişdi. Həyat zülmətdən və bu zülməti işıqlandıran irili-xırdalı ulduzlardan ibarət zaman kəsiyidir. Özünün təbirincə desək, bizi "ata yurdu"nda qarşılayan Abel müəllim öz müsbət aurası ilə zaldakıları valeh etdikcə mənə elə gəlirdi ki, orada əyləşən keçmiş məzunlar həyat yolundakı ən parlaq ulduzlardan birinin şəfəqlərinə qərq olublar.

Sözün ecazkar təsiri altında kiçik akt zalını tərk edərkən xatirə şəkli çəkdirmək üçün universitetin giriş pilləkənlərinə enirik. Universitet rəhbərliyi ilə ən geniş tərkibdə çəkdirdiyimiz fotoşəkil bizim fotoalbomumuzun ən dəyərli eksponatına çevriləcək.

Tədbirin yaddaqalan digər anları isə bizə dərs deyən müəllimlərimizlə olan görüşlə bağlıdır. Universitetin yeni tədris binasında yerləşən yeməkxanaya tərəf irəlilədikcə bizə doğma olan bu elm məbədinin infrastrukturunun nə dərəcədə inkişaf etdiyini görüb düşünürsən: müharibə şəraitində olan bir dövlət böyük maddi və mənəvi sarsıntılardan sonra, kiçik zaman kəsiyində bu qədər müvəffəqiyyətlərə imza atıbsa, deməli, bu xalqı və dövləti heç zaman məğlub etmək olmaz.

Yüksək zövqlə bəzədilmiş yeməkxana zalında biz müəllimlərimizdən akademik B.Əsgərovla, professorlardan İ.Nəcəfov, N.Qocayev, E.Məsimov, A.Kazımzadə, C.Quluzadə, M.Məmmədov və C.Mustafayevlə görüşdük. Ömürlərini ən müqəddəs işə - xalqın maariflənməsinə və savadlanmasına həsr etmiş bu müdrik insanları gördükdə bayaqdan köklənmiş nostalji hisslərimiz sanki rezonansa gəldi. Tələbə yoldaşlarımızla daim təmasda olan Niftalı müəllim və Eldar müəllim 1982-ci il buraxılışının "xüsusi buraxılış" olduğunu dəfələrlə qeyd etmişdilər. Tələbə yoldaşlarımızın böyük əksəriyyəti həyatımızın ən lazımlı anlarında səfərbər olub bir-birinə kömək etməyə hazır insanlardır. Onların sayı və gördükləri işlər çox olduğundan adlarını çəkməkdə çətinlik çəkirəm. Tələbə yoldaşlarımızın böyük əksəriyyətinin iştirak etdiyi bu məclisdə həm müəllimlərimiz, həm də biz öz ürək sözlərimizi və xatirələrimizi bir-birimizlə bölüşdük.

Uzun müddət yaddaşımızda qalacaq bu gözəl tədbir haqda yazımı aşağıdaki nikbin fikirlə yekunlaşdırmaq istəyirəm. Arzu edirəm ki, 35 illik yubileyimizi qeyd edəcək müddət ərzində Azərbaycanımız, Bakımız, universitetimiz daha da inkişaf etsin və gözəlləşsin, tələbə yoldaşlarımızın, müəllimlərimizin, universitet rəhbərliyinin say tərkibi bizlərə ərməğan edilərək qorunub saxlansın! Amin!

A. Ələkbərov,
Bakı Dövlət Universitetinin məzunu, ADPU-nun Elektrik və optika kafedrasının dosenti

Köçürmə hallarına yol vermiş tələbələrin siyahısı

2011/2012-ci tədris ilində köçürmə hallarına yol vermiş tələbələr haqqında əmrdə qeyd edilir ki, 2011/2012-ci tədris ilinin qış və IV kurslarda yay imtahan sessiyası müddətində köçürmə hallarına yol vermiş və ya universitetdaxili nizam-intizam qaydalarını pozmuş aşağıda adları qeyd olunan tələbələr R-102 saylı 14.10.2011-ci il tarixli əmrə əsasən müvafiq qaydada cəzalandırılsınlar:

1. Töhmət elan edilsin və həmin fəndən yay semestrinə buraxılmasınlar.
2. Valideynləri rektorluğa dəvət edilsin və onların nəzərinə çatdırılsın.
3. BDU tələbə təşkilatlarında müzakirə edilsin və onların vəsatəti əsasında yalnız müvafiq semestrdə kredit götürmək şərti ilə təkrar dərslərə buraxılsınlar.
4. Təkrar köçürmə halına yol verən və ya nizam-intizam qaydaları pozan tələbələr universitetdən xaric edilsinlər.

Köçürmə hallarına yol vermiş tələbələrin siyahısını təqdim edirik:

1. Quliyeva Gülzar Arif, mexanika-riyaziyyat, IV kurs.
2. Qurbanova Cavidan Cavid, fizika, IV kurs.
3. Məmmədli Pərvin Nadir, fizika, IV kurs.
4. Tağıyeva Sürəyya Akif, fizika, IV kurs.
5. Qasımova Günel Niyazəli, geologiya,
6. Məmmədov Əliağa Mehman, coğrafiya, IV kurs.
7. Məmmədova Elnurə Xalid, kimya, IV kurs.
8. Məmmədov Süleyman Azər, tətbiqi riyaziyyat və kibernetika, IV kurs.
9. Məmmədov Əli Şəkər, ekologiya və torpaqşünaslıq, III kurs.
10. Bilali Günel Məmmədrəsul, hüquq, II kurs.
11. Mustafayev Hüseyn Əjdər, beynəlxalq münasibətlər və iqtisadiyyat, IV kurs.
12. Həmidova Yeganə Tofiq, tarix, II kurs.
13. Abdurzaqov Yusif Yaşar, tarix

Avropa Şurasının ekspertləri Bakı Dövlət Universitetində olublar

Avropa Şurasının TEMPUS DOQUP Layihəsinin rəhbərləri və Avropa Şurasının ekspertləri Prof. A.Squarzoni (Layihə rəhbəri, İtaliya Universitetləri Rektorları Şurasının üzvü), Prof. G.Bernabeu (AŞ təhsil məsələləri üzrə eksperti, İspaniya), A.Musaio (Beynəlxalq Strategiyalara Dəstək Mərkəzinin direktoru, Layihə meneceri) və S. Ravaioli (İtaliya Universitetlərinin İT Konsorsiumu) Bakı Dövlət Universitetində olublar. Bolonya prosesinin həyata keçirilməsində BDU-nun iştirak etdiyi beynəlxalq tədris layihələrindən biri - "Təhsil Proqramlarının Keyfiyyətinin təmin olunması" - çərçivəsində icmal xarakterli səfərin əsas məqsədi - TEMPUS DOQUP Layihəsinin Azərbaycandan olan tərəf-müqabili BDU-da - təhsil proqramlarında keyfiyyətin artırılması və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsidir. AŞ ekspertləri dəyirmi masa keçiriblər. Dəyirmi masaya BDU tərəfindən Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor İradə Əliyeva, Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor Şəlalə Məmmədova, Tədris elektron Mərkəzinin müdiri Məlahət Qurbanova, Tədris hissəsinin rəisi İbad İbadov, Layihənin koordinatoru Gülheyran Rəhimova, Layihənin əlaqələndiricisi Lalə Bayramova iştirak ediblər.

Dəyirmi masa zamanı aşağıda qeyd olunan məsələlər Layihə rəhbərlərinin və Avropa ekspertlərinin diqqəti mərkəzində olub:

- təhsil proqramlarında keyfiyyətin artırılması və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi üçün vacib məlumatların əldə edilməsi;
- lazımi məlumatların və verilənlərin əldə olunması istiqamətində metodologiyaların və prosedurların müəyyən edilməsi, toplanması, tədqiqi və təqdim olunması;
- lazımi məlumatların və verilənlərin əldə olunması, toplanması, tədqiqi, təqdim olunması üçün vəzifələrin müəyyən edilməsi və vəsaitlərin səfərbər edilməsi;
- zəruri/əldə oluna bilən sənədlərin "kompüterləşmə" səviyyəsinin icmalı.

Qeyd etmək lazımdır ki, bu Avropa Şurasının "Təhsil Proqramlarının Keyfiyyətinin təmin olunması" (Quality Assurance of study programmes) Layihəsinin Azərbaycandakı tərəf-müqabilləri Azərbaycan Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Xəzər Universiteti, Odlar Yurdu Universiteti və Qafqaz Universitetidir.

Geologiyanın aktual problemləri

Geologiya fakültəsində Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Geologiyanın aktual problemləri" mövzusunda Respublika elmi konfransının plenar iclası keçirilib.

Əvvəlcə BDU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Aydın Kazımzadə çıxış edərək konfransın əhəmiyyətindən danışıb. Daha sonra adıçəkilən fakültənin dekanı Adil Xasayev, Faydalı qazıntılar kafedrasının müdiri, professor Vasif Babazadə çıxış edib.

Konfransda geologiya sahəsində elmi-tədqiqat işlərinin keyfiyyətini daha da yüksəltmək məqsədilə müəyyən təkliflər irəli sürülüb, əldə olunan elmi nəticələr müzakirə edilib.

Plenar iclasda tələbələr - Elvin Orucov (Xəzərin şelf zonasının ekoloji vəziyyətinə dair (azərbaycan hissəsi) və Elnur Rəsulzadənin (Termal su yataqları və onlar üzərində qurulmuş geotermal stansiyaların əhəmiyyəti barədə) çıxışları maraqla dinlənilib.

Qeyd edək ki, konfrans materialları dərc edilib.

"Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi" adlı I Beynəlxalq elmi-nəzəri konfrans keçirilib

Jurnalistika sahəsində çalışan alim və gənc tədqiqatçılar tərəfindən aparılan elmi-tədqiqat işlərini məqsədəuyğun istiqamətə yönəltmək, keyfiyyətini daha da yüksəltmək, əldə olunan mühüm elmi nəticələri müzakirə etmək məqsədilə 22 may 2012-ci il tarixdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində rektorun R-54 26.04.12 tarixli əmrinə əsasən, ilk dəfə olaraq "Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi" adlı I Beynəlxalq elmi-nəzəri konfrans keçirilib.

Konfrans materialları məcmuə şəklində nəşr edilib. 449 səhifəlik məcmuəyə xarici müəlliflərin yazıları da daxil edilib.

Məlahət Qurbanova "Qızıl Qələm" aldı

Professor, Tədris Elektron Mərkəzinin müdiri Məlahət Qurbanova "Qızıl Qələm" media mükafatı ilə təltif olunub. Diplom Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə verilib. Məlahət xanım bu mükafata elmi və publisistik yazılarına görə layiq görülüb.

Bu münasibətlə Məlahət xanımı təbrik edir, ona yeni-yeni uğurlar arzulayırıq.

Özünü fəth etməyi bacar! Bakı Universiteti

İngilis dilinin lüğət tərkibinin zənginləşməsində alınma sözlərin rolu

Müasir ingilis dilinin lüğət tərkibi ilə qədim ingilis dilinin lüğət tərkibini müqayisə etsək görərik ki, müasir ingilis dili hazırkı vəziyyətə gəlib çıxana qədər geniş və hərtərəfli yol keçib. Uzun illər ərzində dilin lüğət tərkibi iki növ qüvvənin təsiri altında müxtəlif dəyişikliyə məruz qalaraq formalaşib: 1) qeyri-linqvistik qüvvələr; 2) linqvistik qüvvələr.

Qeyri-linqvistik qüvvələr dedikdə cəmiyyətin istifadə etdiyi dilin lüğətində öz əksini tapan tarixi hadisələr və cəmiyyətin həyatında olan dəyişikliklər nəzərdə tutulur.

Linqvistik qüvvələr dedikdə isə lüğətdəki sözlər arasında müxtəlif əlaqələr, bu əlaqələrin yenidən nizamlanması və s. nəzərdə tutulur.

Lüğət tərkibinin zənginləşməsinin üçüncü yolu - səs təqlidi ilk iki yolla müqayisədə xeyli az mənaya malikdir. Belə halda yeni sözlər bu və ya digər hadisə ilə bağlı səslər əsasında düzəlir. Onun tətbiq edilməsi səslərlə məhdudlaşır. Bu yolla yalnız bəzi sözləri ifadə etmək olar. Məsələn, müxtəlif quşlar və heyvanlar tərəfindən çıxarılan səslər: "to coo - böyürmək, movuldamaq", "to buzz - vızıldamaq" və s.

Bildiyimiz kimi, ingilis lüğəti (ingilis dilinin lüğət tərkibi) dünyadakı bir çox dillərdən alınmış çoxlu sayda sözlərdən ibarətdir. Bu sözlərin yalnız 30%-ni ingilis dilinin öz sözləri təşkil edir. Yerdə qalan 70% isə müxtəlif dillərdən alınmış sözlərdən ibarətdir.

Aşağıdakı sözlərə diqqət yetirək: we, put, wine, table, chair, castle, garage, sputnik və s. Bu sözlərin xarakteristikasında müxtəlifliyi hiss edərək biz onları iki növdə təsnif edə bilərik. Birinci qrup sözləri (we, put, wine, table, chair) xalis ingilis sözləri kimi götürə bilərik. İkinci qrup sözlər (garage, sputnik) isə ingilis dili üçün səciyyəvi olmayan tələffüz və orfoqrafiyaya malik olduğundan xalis ingilis sözləri hesab olunmur.

Sözalma mənbə və tarixinə görə ingilis dilinin lüğət tərkibini belə fərqləndirirlər:

1) Kelt alınmaları. Buraya bard - bard, qədim keltlərdə el şairi; bin - kisə, torba; çuval; brat - uşaq, dəcəl; brock - porsuq; down-təpə; bannock - şirin kökə; cross - xaç; plaid - şal, banshee - ruh; bog - bataqlıq; galore - bol; shamrock - üçyarpaqlı bitki; shillelagh - dəyənək; spalpen - avara, slan - qəbilə, klan (Şotlandiya və İrlandiyada qəbilə icmalarının adı); srag - qaya; glen - ensiz dərə; loch - göl, ensiz dəniz körfəzi; slogan - şüar kimi sözlər aiddir.

2) Latın alınmaları: obligation, constitution, alibi, agriculture, microscope, modern, laboratory, program, system, socialism, communism, capitalism, climate, radius, tradition. Latın alınmalarına həmçinin aşağıdakılar aid edilir:

a) Gündəlik məişət əşyaları, alətlər: ancor (anchor) < lat. ancora; box (box) < lat. buxus; cealc (chalk) < lat. calcem; paper (paper) < lat. paryrus; pyle (pillow) < lat. pulvinus; post (post) < lat. postis; purs (purse) < lat. bursa;

b) Geyim əşyaları: cappe (cap) < lat. cappa; socc (sock) < lat. soccus;

c) Çəki və uzunluq ölçüləri: circul (circle) < lat. circulus; pund (pound) < lat. pondo; ynce (inch) < lat. incia;

d) Heyvan, quş və balıq adları: assa (ass) < lat. asinus; camel (camel) < lat. camelus; turtle (turtle) < lat. turtur; truht (trout) < lat. tructa;

e) Bitki adları: palm (palm) < lat. palma; pere (pear) < lat. pirum; rose (rose) < lat. rosa; plante (plant) < lat. planta;

f) Dini anlayışlarla bağlı sözlər: engel (angel) < lat. angelus; biscop (bishop) < lat. episcopus; cyrice (church) < lat. cyriaca; papa (pope) < lat. papa.

3) Skandinav axını (VIII - IX əsrlər) və xüsusən skandinav istilası dövründə (X əsr) olan skandinav alınmaları: anger " qəzəb " (orta ing. anger - bədbəxtlik, fəlakət < qədim sk. angr - dərd, qəm, qüssə, kədər), fellow "oğlan, gənc, cavan" (orta ing. felawe - yoldaş, şərik < qədim sk. felagi - yoldaş), weak - zəif, weaken - zəifləmək, weak-headed - ağlı zəif, kəmağıl, weakling - iradəsiz insan, weakness - zəiflik, angry "hirsli, acıqlı, qeyzli" - wrooth " acıqlı, hirsli; kinli"; sky "göy, səma" - heaven "göy, səma".

4) Norman istilası ilə şərtləşdirilmiş qədim fransız alınmaları (XII - XV əsrlər): agreeable - xoş, xoşagedən, razı (orta ing. agreable < qədim fr. agreable); action - hərəkət, iş (orta ing. accioun - hərəkət, ittiham etmə (edilmə) < qədim fr. accioun.); beauty - gözəllik, qəşənglik (orta ing. beautee < qədim fr. beate)

5) XVI əsrdən sonra yeni fransız alınmaları. honour - şərəf (orta ing. honour < qədim fr. honur, honour) - honour - ehtiram etmək (orta ing. honouren < qədim fr. honorer), police, machine, magazine, ballet - ballet, bouquet - buket, gül dəstəsi, picturesque - rəssamlıq,familiy-ailə,river-çay,table-stol,parent-valideyn, chemise - qadın köynəyi, chaise - fayton, barrage - sədd, çəpər, hasar; mirage - xəyal, Corps - korpus, Debris - sındırma, qırmalar və s.

6) Müvafiq xalqların iqtisadi, siyasi, mədəni və s. əlaqələri ilə şərtləndirilmiş italyan dilindən alınmalar: million, lombard,alarm (həyəcan, tələş), carat (çəki ölçüsü vahidi), traffic (nəqliyyat hərəkəti), porcelain (farfor, çini), contraband (qaçaqçılıq), bankrupt (müflis, iflas olan adam), battalion, pistol, balcony (eyvan), fresco - freska (divar naxışı), studio (rəssam atelyesi), cello (violonçel), piano (royal), violoin (skripka), bass - bas (yoğun kişi səsi), baritone - bariton (basla tenor arasında kişi səsi), soprano - soprano (ən zil qadın səsi), opera (musiqili dramatik əsər), sonata (müxtəlif temp və xarakterdə olan üç və ya dörd hissədən ibarət instrumental musiqi əsəri), aria (əksəriyyətlə operada orkestrlə birlikdə tək oxunan mahnı), macaroni (makaron), medico (həkim), bandit, biretta, lottery, bravo, duel, gondola, diva, fiasco, studio, replica, fascism, fascist kimi sözlər buraya aiddir.

Sevinc Katibli,
Filologiya fakültəsinin müəllimi

BDU HƏMKARLAR İTTİFAQI KOMİTƏSİNİN konfransı

İyunun 25-də Bakı Dövlət Universiteti Həmkarlar İttifaqı Komitəsinin XIV konfransı keçirilib.

Konfransda universitetin 6 qurumundan seçilmiş 98 nümayəndə, rektor, akademik Abel Məhərrəmov, Respublika Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev, universitetin dekanları, kafedra müdirləri, fakültə həmkarlar təşkilatlarının sədrləri, bir sıra universitetlərin həmkarlar ittifaqı komitələrinin sədrləri iştirak ediblər.

BDU-nun XIII hesabat-seçki konfransı 2005-ci ilin oktyabrında keçirilib. XIV konfrans ötən 7 ildə BDU-nun vəfat etmiş müəllimlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Həmkarlar İttifaqı Komitəsinin sədri, filologiya elmləri namizədi, dosent Fikrət Şiriyev məruzəsində bildirib ki, hesabat dövrü ərzində komitənin 80-dək iclası keçirilib, müxtəlif problemlərin həlli baxımından 170-dək qərar qəbul edilib.

O, Həmkarlar İttifaqı Komitəsinin qazandığı uğurlarda rektor Abel Məhərrəmovun rolunu yüksək qiymətləndirib: "Əslində həmkarlar təşkilatının görməli olduğu bir çox işi rektorumuz özü edir. Mən bu sıraya Altıağac tədris-təcrübə bazasında müəllimlər üçün yaradılan istirahət şəraitini, iki yaşayış kompleksinin, yeni tədris korpusunun istifadəyə verilməsini, universitetin nəzdində müasir poliklinikanın yaradılmasını, tələbələrin və müəllimlərin iaşə şəraitini yaxşılaşdırmaq üçün yeməxana kompleksinin tikilməsini, idman sağlamlıq komplekslərinin istifadəyə verilməsini, 15 ildən artıq istifadəsiz qalan Quba tədris-təcrübə bazası ərazisində istirahət kompleksinin tikilməsini aid etmək istəyirəm. Əlbəttə, 7 il ərzində görülən işləri qısa bir məruzədə əhatə etmək çox çətindir, lakin bu illər ərzində Həmkarlar İttifaqı Komitəsinin, mənim fikrimcə, nail olduğu ən böyük nailiyyət 18 illik fasilədən sonra, 2011-ci il aprelin 1-dən universitet kollektivinin 5 günlük iş həftəsinə keçməsidir ki, onu ayrıca qeyd etmək istəyirəm".

Fikrət Şiriyev çıxışında BDU müəllimlərinin maaş və pensiyalarının artırılması məsələsini qaldırıb. Öncə o bildirib ki, ölkə inkişaf edir, dövlət büdcəsi ildən-ilə artır: "Azərbaycan prezidenti cənab İlham Əliyevin apardığı siyasət xalqımızın sosial vəziyyətini, ölkənin iqtisadi imkanlarını ildən-ilə, aydan-aya, gündən-günə yaxşılaşdırır ki, bu da həmkarlar təşkilatlarının nümayəndələri kimi hər birimizi ürəkdən sevindirir. Lap bu günlərdə - iyunun 19-da prezident İlham Əliyev dövlət büdcəsinə 600 milyon manat əlavə edilməsi barədə fərman imzalayıb. Bununla da büdcəmiz 17 milyard manatı keçib. Müqayisə üçün yada salmaq istəyirəm ki, 2000-ci ildə Azərbaycanın dövlət büdcəsi 800 milyon manata yaxın olub. Belə bir dövrdə yaşamağımız, dövlət başçısının elmə, təhsilə göstərdiyi qayğı və bir də keçən il mayın 17-də yaş senzi ilə əlaqədar olaraq müəllimlərin işdən kənarlaşdırılması məsələsi müzakirə edilərkən BDU-nun rektoru, akademik Abel Məhərrəmovun Milli Məclisin iclasında çox cəsarətli çıxışı və həmin çıxışın sonralar obyektiv qərarın qəbul olunmasında həlledici rol oynaması mənə bir neçə təklif səsləndirməyə əsas yaratdı. Yerinə düşdüyü üçün xatırladım ki, böyük Bəxtiyar Vahabzadənin belə bir beyti var:

Bizi insan kimi yetkinlədi yetdiklərimiz,
Hələ var aşmalı çox dağlarımız, diklərimiz.
Bu yoxuş yolları, aşırımları qət etmək üçün
Bizə qüdrət, bizə qüvvət verir etdiklərimiz...

İlk təklifim professor-müəllim heyətinin əməkhaqqı ilə bağlıdır. Bu insanlar ömürlərini elmə, təhsilə həsr edərək, ən azı 20 il oxumuş, özü də çox yaxşı oxumuş, bu gün də auditoriyaya girməmiş kitabxanada bir neçə saat hazırlaşan, gün ərzində daim düşünən insanlardır. Bu gün Azərbaycanın dövlət ali məktəblərində çalışan professor-müəllimlərin sayı 13 min 161 nəfərdir. Əgər bu əməkdaşların hamısının əməkhaqqına, maksimum həddi deyirəm, ayda 1000 manat əlavə olunarsa, bu, 1 ildə cəmi 157 milyon 932 min manat təşkil edər ki, bu rəqəm büdcə üçün təhlükəli rəqəm deyil.

İkinci təklifim universitet kollektivini narahat edən digər bir məsələ ilə - yeni doğulan uşaqlara görə sosial müavinətlərin ödənilməsi ilə bağlıdır. Yeni doğulan uşaqlara görə valideynə 1,5 yaşadək ayda cəmi 20 manat, 1,5 yaşdan 3 yaşadək isə 10 manat müavinət ödənilir. Bu rəqəm də olduqca simvolik xarakter daşıyır və nəzərə alsaq ki, Azərbaycanda dünyaya gələnlərin sayı 150-160 min nəfər arasındadır, bu məsələyə baxılması da real görünür və digər tərəfdən də bu amil əhali artımına müsbət təsirini göstərə bilər.

Üçüncü təklifim müəllimlərin pensiya məbləğinin artırılması ilə əlaqədardır. Nəzərə alsaq ki, ölkədə ali məktəb müəllimlərinin təxminən 4000 nəfəri pensiya yaşı həddindədir və indi aldıqlarından, deyək ki, 600 manat artıq pensiya alarlarsa, onların böyük əksəriyyəti heç bir inzibati tədbirə ehtiyac duymadan, Avropa ölkələrində olduğu kimi, məmnuniyyətlə istirahətə gedərlər, bununla bir tərəfdən arzu edilən gəncləşmə siyasəti problemsiz həll olunar, digər tərəfdən müəllim nüfuzu qalxar və bu, bir ildə dövlət büdcəsinə cəmi 28 milyon 800 min manata başa gələr.

Sonuncu təklifim isə elmi dərəcələrə görə ödənilən məbləğin çox simvolik olması ilə əlaqədar. Akademiyanın həqiqi üzvləri 1100 manat, müxbir üzvləri 850 manat, onun bir addımlığında olan elmlər doktorları isə cəmi 50 manat, elmlər namizədləri 30 manat pul alırlar. Təklif edirəm ki, sosial ədalətin bərpa edilməsi üçün elmlər doktoru və namizədlər üçün bu məbləğ təxminən on dəfə artırılsın. Belə olan halda Azərbaycanda olan elmlər doktorları üçün bir ildə 10 milyon 950 min manat, elmlər namizədləri üçün 30 milyon 600 min manat, yəni təxminən 40 milyon manat pul xərclənəcək ki, bu da hazırkı vəziyyətdə dövlət büdcəsi üçün ağır yük hesab edilə bilməz".

Rektor Abel Məhərrəmov təklifi dəstəkləyib. Respublika Həmkarlar İttifaqları Konfederasiyası sədri Səttar Mehbalıyev də bu məsələlərə baxılmasının tərəfdarı olduğunu deyib.

Çıxışlardan sonra BDU Həmkarlar İttifaqı Komitəsinin İdarə Heyətinə və sədr postuna seçkilər keçirilib. Fikrət Şiriyev yenidən BDU Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.

Anzulə Əmirova

Abdullayeva Qızılgül-60

Təbrik edirik!

Hər insanın həyatında müxtəlif və ən azı bir neçə müəllimi olur. Müəllim kateqoriyasına yalnız elm öyrədən insan deyil, həyatda düzgün yaşamağı öyrədən, fərdin öz ayaqları üzərində bir şəxsiyyət kimi formalaşmasına yardım edən şəxslər də aiddir. Mən də hamı kimi, həyatımda bir çox müəllim görmüşəm: sevimliləri də olub, sevilməyənləri də. Bu yazımı sevimlilərim içərisində yer alan Qızılgül xanıma həsr etmək istəyirəm. Zənnimcə, müəlliməm üçün onun ad gününü içdən gələn səmimi sözlərlə təbrik edən tələbəsinin yazısından gözəl hədiyyə yoxdur. Mən də bu kiçik yazımla onun kövrək qəlbinə bir az da olsa, toxuna bilsəm, özümü xoşbəxt sayaram.

Tələbəlik illərimdə mənim üçün dərslər iki yerə bölünürdü: yuxu gətirən mühazirələr və canlı, maraqlı mühazirələr. Qızılgül müəllimənin dərsləri, sözsüz, ikinci kateqoriyaya aiddir. Tələbələr Qızılgül müəllimədən ağızdolusu danışırlar. Onun mühazirələrinin canlı, poetik, maraqlı, içdən olması, Füzuli, Xətai, Vaqif haqqında gözləri parıldaya-parıldaya danışması tələbələrinin dilinin əzbəridir. Əgər öz dərsimdə hər hansı bir mövzu haqqında danışsam, uşaqlar həmin an Qızılgül müəllimədən sitat gətirirlər: "Qızılgül müəllimə belə deyir", "Qızılgül müəllimə bu fikirdədir" və s. Və əgər bunu Qızılgül müəllimə deyibsə, deməli, belədir. Tələbələri çox sevir Qızılgül xanımı. Eşitdiyimə görə, mühazirə elə maraqlı keçir ki, tələbələr məhz buna görə dərsə gecikməməyə çalışırlar. Məncə, bu, pedaqoq üçün vacib göstəricidir.

Mənə Qızılgül müəllimənin auditoriyasında tələbə kimi oturmaq nəsib olmasa da, o, mənim daha çox pedaqoji həyatımın yaşıl işığı olub. 2003-cü ildə mən filologiya fakültəsində "Əski Azərbaycan yazısı" fənnini tədris etməli idim. Türkiyə Cümhuriyyətində təhsil aldığım üçün buradakı təhsil sistemi mənə bir az yad gəlirdi. Sevimli "hoca"m, ağsaqqalımız Tofiq Hacıyev məni Qızılgül müəllimənin yanına məsləhətə göndərdi. Qızılgül xanım mənə nəinki "Əski Azərbaycan yazısı" fənninin necə tədris edildiyini öyrətdi, ən əsası, indiyə qədər pedaqoji həyatımda lazım olan hər şeyi: tələbələrlə rəftarı, auditoriyada uşaqları "ələ almaq" qabiliyyətini, tələbə - müəllim münasibətlərini, savadını öyrətdi. Onun dedikləri qulağımda sırğa olub, "marker"imdəki yazıya çevrildi. Bir neçə günün içərisində bir universitet biliyi verdi mənə Qızılgül müəllimə. Elə indinin özündə də bir sualım, başa düşmədiyim bir mövzu olduqda Qızılgül xanıma yaxınlaşıram. O da mühazirədən çıxmasına, stolunun üstündəki çayının soyumasına baxmayaraq, mənə o problemi canla-başla, istəklə, emosiya ilə, ən əsası, sevə-sevə başa salır.

Yuxarıda qeyd etdiklərim Qızılgül xanımın pedaqoji tərəfidir. Şirin-şəkər qızı Xatirəni, igid oğlu Vüsalı görəndə onun necə qayğıkeş bir Ana olduğu insanı qürurlandırır (Allah müəlliməmi uşaqlarının xoşbəxtliyi ilə sevindirsin!).

Evdəki xanımlığı isə dillər əzbəridir Qızılgül xanımın. Kafedramızda Vəsilə xanım həmişə mənə deyir: "Afaq, Qızılgül bir qonaqpərvərdir, bir qonaqpərvərdir, evində olsan, stolunun üstündə barmaq qoymağa yer tapmazsan".

Mənəvi təmizliyi, saflığı üzündə əks olunub müəlliməmin. Üzü nurlu, qəlbi kövrək, ürəyi təmiz Qızılgül müəllimə, Allah Sizə cansağlığı versin, həmişə yanımızda olasınız. Biz gənclərin Sizə ehtiyacı var.

Afaq Məmmədova,
filologiya fakültəsinin müəllimi,
filologiya elmləri namizədi

Xalqımız xilaskar oğlu ilə fəxr edir

"Əgər hansısa bir namərd gülləsi, hansısa bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq".

Heydər Əliyev

Şərq adamının müdrikliyi ilə Qərb siyasətçisinin aristokratlığının vəhdətində apardığı siyasəti ilə tarix yaradan, həyatını xalqına həsr edən Türk dünyasının dahisi - Heydər Əliyev. Uzun illər göstərdiyi fəaliyyətin, apardığı düzgün siyasətin nəticəsi, bütün ömrünün "şah əsəri" bu gün torpağında gəzdiyimiz, havasını uduğumuz, çörəyi ilə böyüdüyümüz "müstəqil Azərbaycan"ımızdır. Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev kimi sevən ikinci şəxs tapılmaz.

Heydər Əliyev və onun siyasəti haqqında çox şey danışmaq olar. Bir tələbə olaraq onun siyasətini dəstəkləyir və alqışlayıram. Xalqın gözü tərəzidir; yaxşını da, pisi də ayıra bilir. Heydər Əliyevi də hakimiyyətə məzh Azərbaycan xalqı gətirmişdir.

Hələ Azərbaycan müstəqillik yolunda ilk addımlarını atanda respublikanın lideri postunda H.Əliyev kimi nüfuzlu və təcrübəli bir siyasi xadimin olması xalqımız üçün böyük xoşbəxtlik idi. Düşünürəm ki, məzh onun siyasəti nəticəsində dövlətimiz dünya ictimaiyyətində tanındı.

XX əsr dahilər əsridir. Heydər Əliyev isə dahilərin dahisidir. Məhz ABŞ kimi böyük dövlət də Heydər Əliyev siyasətini öyrənmək üçün xüsusi məktəb təşkil edilmişdir. Əslində bunu yüksək qiymətləndirirəm. Çünki həqiqətən də, zaman və faktlar Heydər Əliyevin güclü siyasətçi və dövlət xadimi olduğunu sübut edib.

Heydər Əliyev haqqında müxtəlif fikirlər söylənilib, amma ən çox diqqətimi çəkən fikri nəzərinizə çatdırmaq istərdim: "Ey mənim sevimli erməni millətim, biz həlli mümkün olmayan bir işdən yapışmışıq. Yaxşı bilin ki, XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli şəxs var: Atatürk və Heydər Əliyev. Onların ikincisi sağdır, bütün cəhdlərimizə baxmayaraq, o, "çekist" məharəti ilə hər tələdən qurtarır. Bilin ki, nə qədər o, sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri. O, bizdən ağır zərbələr alsa da, Azərbaycan xalqı ən çətin günlərində yenidən onu Bakıya gətirəcək və bununla da bizim arzularımız puça çıxacaqdır".

Hətta düşmənimiz olan qonşu Ermənistan Respublikasının KP MK-nın keçmiş katibi Karen Dəmirçiyan da Heydər Əliyevin böyüklüyünü mitinqdə söylədiyi bu çıxışda bir daha təsdiq etmişdir. Bu çıxış əslində bütün həqiqəti öz çılpaqlığı ilə əks etdirir.

Düşünürəm ki, Heydər Əliyevin sovet dövründə atdığı qətiyyətli addımlar daha diqqətəlayiqdir. O, 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Bu fakt, həqiqətən də, Heydər Əliyevin özü özünün yeganə sahibi olduğunu göstərir.

Heydər Əliyev 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir.

O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etmişdir.

Lakin onun hakimiyyətinin ən yüksək mərhələsi 1993-cü ildən başlayır. Özünün böyük qayıdışı ilə hakimiyyət taxtına əyləşən Heydər Əliyevin ikinci gəlişi millətin növbəti qurtuluşu demək oldu. Milli Qurtuluş isə gələcək dirçəlişin əsasını qoydu.

1993-cü ilin 15 iyununa təsadüf edən bu Milli Qurtuluş günü çağdaş Azərbaycan dövlətinin inamına açılan pəncərə oldu. XX yüzildə ikinci dəfə əldə etdiyimiz müstəqillik təhlükə altında olduğu bir vaxtda Heydər Əliyev dövləti və müstəqillik məfrukəsini xilas etmək üçün sinəsini daxili və xarici düşmənlərimizə sipər etdi. Ölkədə anarxiyanın, hərc-mərcliyin baş alıb getdiyi bir vaxtda sağlam məntiqə, müdrik siyasətə arxalanan bir quruluşa ehtiyac duyulurdu.

Fəaliyyətinin bütün dövrlərində xalqının hüquq və bərabərliyini əsas götürən, onun şəxsiyyətinin və ləyaqətinin qorunmasına çalışan Heydər Əliyev demokratik cəmiyyət quruculuğu ilə bağlı addımlarında böyük Atatürkün, Türkiyə Cümhuriyyətinin qurucusunun arzularını həm də Azərbaycanda gerçəkləşdirmişdi: "Allah məni Türkiyəni bəladan qurtarmağa məmur etdi," - deyən Atatürk öz inqilabları ilə modern Türkiyəni qurdu. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev də bu amalla yeni Azərbaycanı qurmağa gəlmişdi.

İnsan hüquqlarının pozulduğu, ordunun bacarıqsız, səriştəsiz, ordudan xəbərsiz şəxslərin əlində girova çevirdiyi məqamda hakimiyyətə qayıdan Heydər Əliyev Tanrının ona qürdətindən bəxş etdiyi xilaskarlıq, quruculuq yolunu tutdu.

Böhranlı vəziyyətdə millətin ümummilli xilaskar keyfiyyətlərinə malik liderini müəyyənləşdirməyin öz tarixi və məntiqi mənası var. Zaman Heydər Əliyevi doğurdu və taleyin hökmü ilə o, yeni minilliyin başlanğıcında Azərbaycan xalqının həyatında tarixi rolunu oynadı. Böyük dövrlər və böyük liderlər.

Dünya Heydər Əliyevi tanıdı və dərk etdi.

Heydər Əliyev azərbaycanlı olduğu ilə fəxr edirdisə, Azərbaycan xalqı da Heydər Əliyev kimi bir xilaskarının olduğuna görə fəxr edir.

Qurtuluş günümüz mübarək!

Leyla Cəfərli,
tarix fakültəsinin III kurs tələbəsi

"İKT sahəsində əsas istiqamətlər və iş imkanları"

Tələbə Həmkarlar İttifaqı Komitəsi müasir qloballaşma şəraitində elm və təhsil, səhiyyə, iqtisadiyyat və digər sahələrdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin miqyasının genişliyini nəzərə alaraq, "MilliByte" İnformasiya Texnologiyaları Mərkəzi (İTM) ilə birlikdə universitetdə aktiv və ictimaiyyətçi tələbə-gənclər üçün "İKT sahəsində əsas istiqamətlər və iş imkanları" mövzusunda bir günlük seminar-treninq təşkil edib.

Seminarı giriş sözü ilə açan THİK sədri Daşqın Qənbərov XX əsrin son onilliyində informasiya və kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrildiyini bildirib: "Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə edir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur". Dünya təcrübəsinin informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunmasının ölkənin hərtərəfli inkişafına xidmət etdiyini bildirən THİK sədri məhz bu texnologiyaların əhalinin sosial-iqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması və yoxsulluğun azaldılması üçün tutarlı vasitələrdən olduğunu qeyd edib. Son illərdə Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsində müəyyən addımlar atılmış, bir sıra sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılmış olduğunu diqqətə çatdıran D.Qənbərov ümumiyyətlə, bu istiqamətin dövlət siyasətinin prioritetlərindən birinə çevrildiyini vurğulayıb.

Sonra "MilliByte" İnformasiya Texnologiyaları Mərkəzinin (İTM) direktoru Xəyal Kərim İTM - nin prioritet istiqamətləri, maddi-texniki imkanları, pedaqoji potensialı barədə ümumi məlumat verib, mövzu ətrafında çıxış edib.. Daha sonra tələbələri maraqlandıran sullar cavablandırılıb.

"Təbiət və səmərəli texnologiyalar"

Tələbə Həmkarlar İttifaqı Komitəsi 2 hissəli elmi-maarifləndirici tədbir keçirib. Tədbirdə açılış nitqi ilə çıxış edən Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Daşqın Qənbərov seminarın əhəmiyyətindən danışıb və ilk təqdimatı etmək üçün sözü "Təbiət Elmləri" İctimai Birliyinin sədri Rövşən Əkbərova verib.

Rövşən Əkbərov "Təbiət və texnologiya" mövzusunda çıxış edərək təbiətdəki texnologiyaların önəmini qeyd edib. Rövşən Əkbərov canlılardan nümunə götürülərək istehsal edilən az tullantılı texnoloji məhsullardan və canlılardakı yüksək texnologiyalardan konkret nümunələr göstərib.

Daha sonra "Həyatın mənşəyi: nəzəriyyələr və sübutlar" mövzusu ilə çıxışını davam edən Rövşən Əkbərov həyatın mənşəyi problemini izah etməyə çalışan təkamül nəzəriyyəsinin müasir dövrdə qarşılaşdığı problemlərdən danışıb. "Hüceyrə çox kompleks sistemlərdən təşkil olunub və bu sistemlər təsadüfən, mərhələ-mərhələ əmələ gələ bilməz. Hüceyrədən əlavə, bircə zülalın belə təsadüfən əmələ gəlmə ehtimalı sıfıra bərabərdir,"- deyə mühazirəçi bildirib.

Bundan başqa tədbirdə milyonlarla il ərzində heç bir dəyişikliyə məruz qalmadan dövrümüzə qədər gəlib çıxan fosillər (daşlaşmış heyvan və bitki qalıqları) nümayiş etdirilib.

Tədbir tələbələrlə açıq müzakirələrdən sonra yekunlaşdırılıb.

010A qrupu "Gənc istedadlar" liseyində uğurlu pedaqoji təcrübə keçib

4-cü kurs 010A qrupu Bakı Dövlət Universitetinin nəzdində yaradılmış "Gənc istedadlar" liseyində pedaqoji təcrübə keçdi.

Qeyd edim ki, "Gənc istedadlar" liseyi görkəmli kimyaçı alim, millət vəkili, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun təşəbbüsü və səyi, həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə 2007-ci ildən BDU nəzdində fəaliyyətə başlamışdır. Lisey 17 aprel 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Xüsusi istedada malik olan şagirdlərin (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"na uyğun olaraq təsis edilmişdir.

Təcrübənin başlanğıcında "Gənc istedadlar" liseyində pedaqoji təcrübə ilə əlaqədar konfrans keçirildi. Liseyin direktoru professor Qasım Hüseynov bizi mehribanlıqla qarşıladı, bizə təcrübə haqqında ətraflı məlumat verdi. Konfransda fakültənin dekanı, dosent Məhərrəm Vəliyev, pedaqoji təcrübənin rəhbəri, fakültənin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəhilə Quliyeva çıxış edərək təcrübəçi tələbələrə tövsiyələrini verdi, pedaqoji təcrübənin məqsəd və vəzifələrini açıqladı.

Qrupumuzun tələbələri müvafiq olaraq 5-11-ci siniflərdə keçirilən dərslərdə iştirak etdilər. 20 apreldən etibarən biz təcrübə gündəliyimizi yazmağa başladıq. Hər bir tələbə 4 açıq dərs keçdi. Təcrübəçi tələbələr hər açıq dərsdən əvvəl icmal yazırdı və bu da bir növ dərsə hazırlıq idi. Mənim 6 "C", 5 "R" siniflərində 1 dəfə, 5 "A" sinfində isə 2 dəfə açıq dərsim oldu. Uşaqlara yeni dərsi izah edərkən ali məktəbdə aldığım biliklərdən, müəllimlərimizdən öyrəndiklərimdən şagirdlərə çatdırmağa çalışdım. Birinci açıq dərsim 6 "C" sinfində oldu. Mən "Robinzon Kruzo" əsərini şagirdlərdən soruşdum, Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanından "Manqurt əfsanəsi" parçasını izah etdim. Şagirdlərə maraqlı olsun deyə roman haqqında da geniş məlumat verdim, şagirdləri maraqlandıran sualları cavablandırdım. Şagirdlər dərsə maraqla qulaq asdılar.

Digər açıq dərsimdə Azərbaycan dili üzrə öz hazırladığım test tapşırıqlarım vasitəsilə şagirdlərin bilik səviyyəsini yoxladım.

Keçdiyimiz açıq dərslərdə pedaqoji təcrübə rəhbərimiz dosent R.Quliyeva, fənn müəllimi və bir neçə qrup yoldaşımız iştirak edirdi. Qrup yoldaşlarımızdan Səməni Abbasovanın, Şəhla Qarayevanın, Gülnaz Cabbarovanın, Günay Əmrahovanın və digərlərinin açıq dərslərində iştirak etdim. Keçilən hər açıq dərsdən sonra rəhbərimiz dərsin mənfi və müsbət cəhətlərini qeyd edir, gələcəkdə daha yaxşı mütəxəssis olmaq üçün təcrübəli müəllim kimi bizə öz tövsiyələrini verirdi.

Təcrübə müddətində biz tədrisin metodikası, təşkili və təlim-tərbiyə işləri ilə yaxından tanış olduq. Təcrübənin yekununda təcrübəçi tələbələrə lisey tərəfindən xasiyyətnamə və təcrübə rəhbəri tərəfindən 100 ballıq göstərici üzrə müvafiq qiymət verildi. Pedaqoji təcrübədə olduğumuz müddətdə bizə dərs demiş təcrübəli professor-müəlim heyətinin verdiyi nəzəri bilikləri daha da möhkəmləndirməyə çalışdıq.

Liseyin şagirdləri hər il keçdikləri fənlər üzrə imtahan verirlər ki, bunun da şagirdlərin biliklərinin möhkəmləndirilməsində çox böyük əhəmiyyəti vardır. Liseydə təlim-tərbiyə prosesində BDU-nun rektoru, millət vəkili, akademik Abel Məhərrəmovun, müvafiq kafedraların professor-müəllim heyətinin diqqət və qayğısı xüsusi hiss olunur.

"Gənc istedadlar" liseyində təcrübə keçdiyimə görə çox şadam. Sanki biz BDU-nun bir filialında təcrübə keçdik. Lisey biz tələbələrin təhsil aldığı universitetdən heç də geri qalmır, burada universitetin ab-havası hiss olunur. Liseydə pedaqoji təcrübənin təşkilinə və keçirilməsinə lisey rəhbərliyinin nəzarəti yüksək səviyyədə idi. Təcrübəçi tələbələrin normal çalışmaları, müşahidə aparmaları üçün əlverişli şərait yaradılmışdı. Bütün bunlar pedaqoji təcrübə iştirakçılarının məsuliyyət hissini artırdı. Şagirdlərdə təcrübəçi tələbələrin işinə ciddi münasibət var idi.

Ümumiyyətlə, pedaqoji təcrübənin keçilməsində, təcrübənin səmərəli təşkilində müxtəlif amillər əhəmiyyət daşıyır. Təcrübə müddətində dərsin keçirilməsində lazım olan bütün vəsaitlərdən istifadə etməyimizə şərait yaratdığına və təcrübədən çox şey öyrəndiyimə görə mən hörmətli rektorumuz, millət vəkili, akademik A.Məhərrəmova, fakültəmizin dekanı, dosent M.Vəliyevə, biz tələbələrə belə səmərəli şərait yaratdığına görə "Gənc istedadlar" liseyinin direktoru professor Q.Hüseynova, bizə təcrübədə rəhbərlik etmiş R.Quliyevaya, liseyin müəllim-şagird heyətinə dərin təşəkkürümü bildirirəm.

Ayşən Sadıqlı,
filologiya fakültəsi, IV kurs tələbəsi

ETİBARSIZDIR

Biologiya fakültəsinin IV kurs tələbəsi Abdinova Mələk Məhəmməd qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cografiya fakültəsinin II kurs tələbəsi Soltanov Elvin Zabil oğluna məxsus tələbə vəsiqəsi və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin IV kurs tələbəsi Sadıqova Həmidə Rasim qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kimya fakültəsinin III kurs tələbəsi Əlizadə Əminə Qurbanəli qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Ekologiya və torpaqşünaslıq fakültəsinin I kurs tələbəsi Qocayeva Rəfiqə Zahid qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin II kurs tələbəsi İbadova Xanım Səxavət qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kimya fakültəsinin II kurs tələbəsi Urfanə Əkrəm qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kimya fakültəsinin II kurs tələbəsi Hüseynova Gülnar Adıgözəl qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsiz sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin I kurs tələbəsi Sərhədova Zəminə Fikrət qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin III kurs tələbəsi Abbaslı Arzu Bayram qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin III kurs tələbəsi Abdullazadə Gülşən Elman qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin I kurs tələbəsi Məmmədov Qulamhüseyn Qismət oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!

Bakı Universiteti

№ 07 (1431) 29 iyun 2012-ci il

SON SƏHİFƏ

Olimpiada qalibləri

Tələbələrimiz uğurlu nəticələr əldə etdilər

Məlum olduğu kimi, müasir zamanda ali təhsil almış insanların ən vacib savad göstəriciləri kompyuter texnologiyalarını və xarici dilləri bilmə səviyyələri hesab olunur. XXI əsrdə artıq kompyuterlər insanların ən yaxın köməkçilərinə çevrilib. Hər bir ölkənin həm iqtisadi, həm də hərbi qüvvəsinin formalaşmasında kompyuter texnologiyalarından istifadə səviyyəsi çox mühüm rol oynayır. Ona görə də cəmiyyətimizdə yüksək səviyyəli proqramçılara çox böyük ehtiyac vardır. Şübhəsiz söyləmək olar ki, olimpiadaların keçirilməsi belə yüksək səviyyəli mütəxəssislər ordusunun yaranması üçün əsaslı bir zəmindir.

Uzun müddətdir ki, həm fakültəmizdə, həm də bütün ölkə miqyasında keçirilən proqramlaşdırma üzrə bir sıra olimpiadalara fakültənin dosenti Ramin Mahmudzadə rəhbərlik edir. Demək olar ki, bu istiqamətdə onun çox böyük əməyi vardır. Tələbələri həvəsləndirmək, onları dünyanın müxtəlif ölkələrində keçirilən olimpiadalara hazırlamaq, bu işi təbliğ etmək, komandalara rəhbərlik etmək, müxtəlif səviyyələrdə keçirilən olimpiadalar təşkil etmək və s. bu insanın Azərbaycan təhsili üçün gördüyü böyük işlərin bir hissəsidir.

Məlum olduğu kimi, hələ sovet dövründə tələbələr və məktəblilər arasında müxtəlif fənlər üzrə yarışmalar keçirilirdi və sonralar belə olimpiadalar artıq bir növ ənənə halını aldı. Soruşula bilər ki, olimpiadalara vaxt və vəsait ayırmağa dəyərmi, elm və təhsilin inkişafında olimpiadaların yeri varmı?

Bu sualın cavabı, sözsüz ki, müsbətdir. Çünki olimpiadalar bilik və bacarıq yarışmasıdır. Biliyin həqiqi səviyyəsi isə ancaq yarışmalarda üzə çıxır. Digər tərəfdən, olimpiadalarda kifayət qədər yüksək səviyyəli məsələlər təklif edilir. Belə məsələləri həll etmək üçün tələbələr xüsusi hazırlıq keçməli, gərgin şəraitdə hazırlaşmalı və öz istedad və bacarıqlarını durmadan təkmilləşdirməlidirlər. Məlum olduğu kimi, ali məktəblərin ən əsas vəzifəsi yüksək savada malik belə tələbələrin hazırlanmasıdır.

Bu baxımdan universitetdə olimpiada ənənələrinin yaradılması və inkişaf etdirilməsi çox gözəl və təqdirəlayiq bir hadisədir.

Bu il də ənənəvi olaraq, BDU-nun tətbiqi riyaziyyat və kibernetika fakültəsində proqramlaşdırma üzrə olimpiada keçirildi. Olimpiadada öz bilik və bacarığını nümayiş etdirmək istəyən 13 tələbə iştirak etdi. Onlara təklif edilən 5 məsələ kifayət qədər yüksək səciyyəli idi. Bu məsələlərin həllinə cəmi 5 saat vaxt ayrılmışdı. Olimpiada müasir kompyuter texnologiyaları ilə təchiz edilmiş BDU-nun Koreya mərkəzində aparılırdı.

Gərgin şəraitdə keçən 5 saatdan sonra 13 tələbədən cəmi 4-ü nəticə ala bildi. Onlar yazdıqları proqramları və verilmiş testlər üçün aldıqları nəticələri münsiflər heyətinə təhvil verdilər.

Münsiflər heyəti tələbələrin nəticələrini araşdırdıqdan sonra aşağıdakı nəticələri elan etdi:

I - yer Yusubov Ruvin Omari oğlu, tətbiqi riyaziyyat və kibernetika fakültəsi, III kurs, TK-05 qrupu - 820 bal;

II - yer Hüseynli Şərif Ərəstun oğlu, tətbiqi riyaziyyat və kibernetika fakültəsi, I kurs, TK-16 qrupu - 640 bal;

III - yer Dostuzadə Xanım, tətbiqi riyaziyyat və kibernetika fakültəsi, III kurs, TK-08 qrupu - 420 bal;

IV - yer Mərdanov Asif Valid oğlu, tətbiqi riyaziyyat və kibernetika fakültəsi, III kurs, TK-05 qrupu - 240 bal.

Beləliklə, universitetimizin ən istedadlı proqramçılarının adları məlum oldu. Əlbəttə ki, onların bilik və bacarığı digər tələbələr üçün bir nümunə olmalıdır.

Fərəhlə qeyd etmək lazımdır ki, bu olimpiadanın da təşkilatçısı və aparıcısı bizim hörmətli Ramin müəllim idi.

Qeyd etmək istərdim ki, olimpiadalarda iştirak edən bir sıra keçmiş tələbələrimiz həm Azərbaycanda, həm də bir sıra xarici ölkələrin böyük şirkətlərində çalışaraq yüksək məvacib alırlar.

Nəhayət, mayın 13-də Qafqaz Universitetində proqramlaşdırma üzrə Respublika olimpiadası keçirildi. Bu tədbirə Azərbaycanın bütün ali məktəblərindən nümayəndələr dəvət olunmuşdu. Münsiflər heyətinin sədri ADNA-nın professoru Kamil Aydazadə, olimpiadanın əsas təşkilatçısı isə Azərbaycan Respublikası Təhsil Nazirliyi idi. Respublikanın hər yerindən demək olar ki, 70-ə yaxın tələbə olimpiadada iştirak etmək üçün Qafqaz Universitetinə gəlmişdi. Münsiflər heyəti əvvəlcədən iştirakçılar üçün beynəlxalq səviyyəyə uyğun 5 məsələ hazırlamışdı. Məsələlərin səviyyəsi kifayət qədər yüksək idi. Müqayisə üçün deyə bilərəm ki, birinci yeri tutan Qafqaz Universitetinin tələbəsi 5 məsələdən cəmi 2-sini tam, birini isə yarımçıq həll etdi.

Gərgin mübarizə şəraitində keçən olimpiada bizim tələbələr üçün də uğurlu oldu. Komandamızın 5 üzvündən 3-ü yarışın qalibləri sırasına daxil oldu:

II yer - Yusubov Ruvin Qmari oğlu;

III yer - Mərdanov Asif Valid oğlu;

IV yer - Hüseynli Şərif Ərəstun oğlu.

Müqayisə üçün qeyd edim ki, 70 tələbədən cəmi 12-si sıfırdan yuxarı bal toplamışdı. Onlardanda 4-ü bizim universiteti təmsil edirdi.

Beləliklə, daha bir olimpiada arxada qaldı. Güman edirəm ki, qarşıdan gələn yeni olimpiadalara tələbələrimiz daha yaxşı hazırlaşacaq və universitetimizin adını daha da yüksəkliklərə qaldıra biləcəklər.

Olimpiada qaliblərini, istedadlı proqramçı tələbələrimizi bir daha təbrik edir və gələcək yarışlarda onlara daha böyük uğurlar arzulayıram.

Fuad Qurbanov,
baş müəllim

DİQQƏT!!!

BDU-nun 100 illik yubileyi ərəfəsində onun tarixi muzeyi yeniləşdiriləcəkdir. Bu məqsədlə xahiş edirik ki, 50-60-cı illərə aid universitetlə bağlı fotoşəkilləri, telefon aparatları, yazı makinaları və digər texniki avadanlıqları olan şəxslər universitetlə, "Bakı Universiteti" qəzeti ilə əlaqə saxlayıb təqdim etsinlər.

Elmi kitabxanaya dəyərli hədiyyələr verilib

Geologiya fakültəsində uzun illər işləmiş, görkəmli alim "Kristalloqrafiya, mineralogiya və geokimya" kafedrasının professoru, əməkdar elm xadimi Sübhi Əli oğlu Bektaşinin vəsiyyətinə görə onun şəxsi kitabxanası ailəsi tərəfindən Universitetin Elmi Kitabxanasına hədiyyə edilib.

Universitet kollektivi adından təşəkkür edirik.

THİK-in növbəti hesabat - seçki konfransı

İyunun 22-də Bakı Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin növbəti Hesabat-seçki konfransı keçirilib. Konfransda rektor akademik Abel Məhərrəmov, ATİAHİK-ın sədr müavini Mirzə Cəfərzadə və digər qonaqlar, tələbələr iştirak edib. Konfransı giriş sözü ilə açan akademik Abel Məhərrəmov konfransa uğurlar arzu edərək, Tələbə Həmkarlar İttifaqı Komitəsinin kollektivini ötən seçki ilindəki uğurlu fəaliyyətlərinə görə təbrik edib. Rektor qeyd edib ki, BDU THİK ölkəmizdə fəaliyyət göstərən tələbə təşkilatlarının flaqmanıdır. M.Cəfərzadə çıxış edərək THİK-in fəaliyyətinin nümunəvi olduğunu qeyd edib.

Sonra konfrans öz işinə start verib. Mandat və təftiş komissiyalarının hesabatları dinlənilib və səsə qoyularaq yekdilliklə qəbul edilib. Daha sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Daşqın Qənbərov hesabatla çıxış edib. O, rəhbərlik etdiyi təşkilatın son 5 ildəki fəaliyyətindən danışıb, həmin məlumatlar slayd vasitəsi ilə konfrans iştirakçılarına nümayiş etdirilib. Sonra konfrans ətrafında BDU Tələbə Gənclər Təşkilatının sədri Məmmədbağır Məmmədov və Tələbə Həmkarlar İttifaqı Komitəsinin keçmiş sədr müavini, BDU əməkdaşı Sahil Hacıyev çıxış edib. Hesabat yekdilliklə qəbul olunub. Konfransda 39 nəfərdən ibarət yeni komitə və yeni idarə heyəti seçilib. ***Sonda Daşqın Qənbərovun təcrübəsi, gənclər arasında nüfuzu əsas götürülərək yenidən sədr seçilib.*** Göstərilən bu etimada görə konfrans nümayəndələrinə təşəkkürünü bildirən Daşqın Qənbərov bundan sonra da THİK-in inkişafı üçün səylə çalışacağını bildirib. Konfransda çıxış edən sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor professor Sani Hacıyev yeni sədri təbrik edərək, Tələbə Həmkarlar İttifaqı Komitəsinin növbəti illərdəki fəaliyyətlərinin də uğurlu olacağına əminliyini ifadə edib.

Tələbə dünyası

BACILAR

(Qrup yoldaşlarıma)

Biri Hicranədi, boyu da bəsdə,
Dərdindən çoxları olubdu xəsdə,
Düşürlər ardılə dəsdəbədəsdə,
Verməz heç birinə aman bacılar.

Gözlərin şəvədir, dişlərin inci,
Aynurə, bənzərsiz incidir, inci,
İmansız görərsə səni, birinci,
Şübhəsiz, qazanar iman, bacılar.

Bənzərsizsiz, dili-dodağı şəkər,
Sizi görən heç üzülüb dərd çəkər?
Cənnətdəyik, düz üç ildi sərasər,
Kuyiniz cənnəti-rizvan, bacılar.

Siz varikən yox günəşə heç gərək,
Günəşdən çox daha parlaqsız, mələk!
Diləyir, Salahlı, ürəkdən dilək,
Görməsin üzünüz yaman, bacılar.

Ata Salahlı,
filologiya fakültəsinin II kurs tələbəsi

Baş redaktor: Anzulə ƏMİROVA

Redaksiya heyəti: Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

Redaksiyanın ünvanı: Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
Tel.: 439-03-64, 439-04-78
e-mail: BU_press@bsu.az

Sifariş: 163
Tiraj: 2000

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır